*UOT 372.893*

***Leyla Qabil qızı Orucova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0009-0009-4701-9300*
*E-mail: leyla_1989orucova@mail.ru*
*https://doi.org/10.69682/arti.2026.93(3).96-100*

# ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN DİGƏR TÜRK XALQLARI VƏ DÖVLƏTLƏRİNİN TARİXİ İLƏ İNTEQRATİV TƏDRİSİNİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ROLU

***Leyla Gabil Orujova***
*doctoral student of the Institute of Education of the Republic of Azerbaijan*

# THE ROLE OF INTEGRATIVE TEACHING OF AZERBAIJAN HISTORY WITH THE HISTORY OF OTHER TURKISH PEOPLES AND STATES IN HIGHER SCHOOLS IN THE FORMATION OF PERSONALITY

***Лейла Габиль гызы Оруджева***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*

# РОЛЬ ИНТЕГРАТИВНОГО ПРЕПОДАВАНИЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА С ИСТОРИЕЙ ДРУГИХ ТЮРКСКИХ НАРОДОВ И ГОСУДАРСТВ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ

**Xülasə.** Məqalədə ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisinin şəxsiyyətin formalaşmasında rolu araşdırılmışdır. Müasir dövrümüzdə təhsilin əsas məqsədlərindən biri müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Bu məqsədin reallaşmasında ali məktəblərdə tədris olunan Azərbaycan tarixi fənninin rolu böyükdür. Belə ki, Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi tələbə-gənclərdə xalqımızın tarixi keçmişini, soykökünü, milli-mənəvi dəyərlərini daha dərindən və ətraflı mənimsəməyə kömək edir ki, bu da onların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.
***Açar sözlər:*** *ali məktəb, Azərbaycan tarixi, türk xalqları, türk dövlətləri, tədris, inteqrasiya, şəxsiyyət*

**Abstract.** The article examines the role of the integrated teaching of Azerbaijani history with the history of other Turkic peoples and states in higher education institutions in the formation of personality. In our modern era, one of the main goals of education is to educate independent and creatively thinking citizens and individuals. The role of the subject History of Azerbaijan taught in higher education institutions in the realization of this goal is great. Thus, the integrated teaching of Azerbaijani history with the history of other Turkic peoples and states helps students and young people to more deeply and comprehensively master the historical past, ethnic roots, national and spiritual values of our people, which plays an important role in their formation as individuals.
***Keywords:*** *higher education, Azerbaijani history, Turkic peoples, Turkic states, education, integration, personality*

**Аннотация.** В статье исследована роль интегрированного преподавания истории Азербайджана с историей других тюркских народов и государств в высших учебных заведениях в формировании личности. Одной из основных целей образования в нашу современную эпоху является воспитание независимых и творчески мыслящих граждан и личностей. Роль предмета История Азербайджана, преподаваемого в высших учебных заведениях, в реализации этой цели велика. Таким образом, интегри-

рованное преподавание истории Азербайджана с историей других тюркских народов и государств помогает студентам и молодежи более глубоко и всесторонне освоить историческое прошлое, этнические корни, национально-духовные ценности нашего народа, что играет важную роль в их становлении как личностей.

***Ключевые слова:*** *высшая школа, история Азербайджана, тюркские народы,* тюркские государства, *преподавание, интеграция, личность*

XXI yüzilliyin əvvəllərində yeni təhsil proqramlarının hazırlanması və tətbiqi ölkəmizdə təhsilin məzmununun nəzəri və praktik baxımdan yenilənməsində mühüm rol oynayır. Bütün sahələrdə olduğu kimi təhsil sahəsində də inkişaf prosesi getməkdədir. İctimai-siyasi həyatda baş verən qloballaşma və modernləşmə təhsil sisteminin əsaslı təkmilləşməsini də mühüm bir vəzifə kimi irəli sürür. Bu vəzifəni yerinə yetirmək üçün fənn kurikulumları tətbiq olunur. Şagirdyönümlü, şəxsiyyətyönlü, nəticəyönlü və tələbəyönlü təhsilə üstünlük verilir. Bu baxımdan müasir dövrün tələblərinə cavab verən şəxsiyyət – vətəndaşın formalaşması ilk növbədə şəxsiyyətyönlü təhsildən keçir. Belə şəxsiyyətlərdə vətəndaş təfəkkürü, müstəqillik, demokratiklik, yaradıcılıq və tədqiqatçılıq qabiliyyətləri daha çox inkişaf edir ki, bu da səriştə əsaslı təhsilin məzmununun formalaşması ilə bağlıdır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun dördüncü maddəsində təhsilin əsas məqsədlərində qeyd edilir: "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək" (1).

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyilir: "Birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir" (2).

Həmçinin təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri arasında humanistlik və inteqrasiya mühüm yer tutur. Bu baxımdan tədqiq etdiyimiz problem aktuallığı ilə seçilir.

Müasir təhsilin inkişafı yaradıcı düşünən, yeni təfəkkür mədəniyyətinə yiyələnən şəxsiyyətin formalaşdırılması ilə bağlı olduğu qədər, şəxsiyyətin formalaşdırılması da təlim-tərbiyə prosesində təhsilalanlarda tədqiqatçılığın formalaşdırılması ilə əlaqəlidir (3, s.116).

Elm cəmiyyətin hərəkətverici qüvvəsi olmaqla müasir dövrümüzdə həyatımızın müxtəlif sahələrinin inteqrasiyası vətəndaşların şəxsiyyət kimi formalaşmasında, ictimai həyatda baş verən hadisələrin dərk olunmasında böyük rolu vardır. İnteqrativ tədris təhsilalanlarda dünyagörüşünü inkişaf etdirməklə bilikləri tam şəkildə qavramağa və real həyatda tətbiq etməyə imkan verir. Bu yanaşma tələbələrdə tənqidi təfəkkürü, yaradıcılıq qabiliyyətlərini, müstəqil qərarvermə bacarıqlarını inkişaf etdirərək təhsilalanların şəx siyyət kimi formalaşmasında mühüm rol oynayır. Ona görə də fənlər arasında sərhəd qoymaq deyil, inteqrasiya elementlərinin inkişaf etdirilməsi, intellektual insan kapitalının formalaşdırılması ali təhsil müəssisələrinin qarşısında duran vacib amillərdən hesab edilir. Eyni zamanda ali təhsil müəssisələrinin qarşısında duran digər mühüm vəzifələrdən biri cəmiyyətə dərin nəzəri və təcrübi biliklərə malik vətəndaşların hazırlanmasıdır. Bu vəzifənin həyata keçirilməsində ali məktəblərdə tədris olunan ictimai-siyasi fənlərin əsasən də Azərbaycan tarixi fənninin rolu böyükdür.

Azərbaycan tarixinin tədrisinin ən ümdə vəzifələri tələbə-gənclərə Vətənimizin tarixi keçmişi haqqında dərin biliklər vermək, onlara tariximizin mürəkkəb və ziddiyyətli dövrlərindən baş açmağı öyrətmək, onlarda tarixi təfəkkürü formalaşdırmaq, cəmiyyətdə baş verən hadisələri obyektiv qiymətləndirmək bacarığı aşılamaqdan ibarətdir (4, s.10). Tələbə – gənclərin vətənimizin qədim və zəngin tarixini öyrənmələri onların dünyagörüşünün hərtərəfli inkişafına və şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Professor İ. Cəbrayılov "Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti" adlı monoqrafiyasında şəxsiyyətyönlü təhsilin əsas xüsusiyyətlərini aşağıdakı kimi ifadə etmişdir:

1) təhsilalanlara subyekt kimi yanaşılmalı; 2) dialoji yanaşma; 3) ekzistensiallıq; 4) inteqrativlik; 5) inkişafetdirici xarakterin olması; 6) pe-

daqoji kadrların müasir tələblər səviyyəsində hazırlanması; 7) təhsilin fundamentallığı (5, s. 43).

Buradan da aydın olur ki, şəxsiyyətyönlü təhsilin əsas xüsusiyyətlərindən biri olan inteqrativlik fənlərin tədrisinə kompleks yanaşmaqla tədris prosesində şəxsiyyətin formalaşmasına təsir göstərir.

Təhsilalanlarda, o cümlədən tələbələrin mənəvi keyfiyyətlərinin formalaşması qayğısına qalmaq, bu məqsədlə təlim prosesinin, mühazirə və seminar məşğələlərinin, eyni zamanda audito riyadankənar tədbirlərin səmərəliliyinə nail olun - ması, milli tərbiyəyə, milli dəyərlərimizə əsaslanmaq mühüm tələb kimi qarşıda dayanır (6, s. 71).

Ölkəmizin gələcək taleyi onun gənclərindən asılı olduğundan təhsildə aparılan islahatlar milli ənənələrimizə söykənərək, soykökünə bağlı şəxsiyyətin formalaşmasına xidmət etməlidir. Gənc nəsli milli-mənəvi dəyərlər ruhunda tərbiyə etmək əsas məqsədlərimizdəndir.

Professor P.B. Əliyev və professor H.H. Əhmədovun "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi" adlı vəsaitlərində milli-mənəvi tərbiyənin tərkib hissələrini aşağıdakı məzmunda formulə etmişdirlər:

1. Soykökümüzə və adət-ənənələrimizə əsaslanan tərbiyə;
   a) mənəvi-əxlaqi keyfiyyətlərin tərbiyəsi
2. İslam dininin təsiri ilə yaranmış mənəvi - əxlaqi keyfiyyətlərin tərbiyəsi;
3. Ümumbəşəri dəyərlərin milli dəyərlərimizlə sintez halında yaranmış tərbiyəsi (7, s.15).

Bu amillərin təlim prosesində nəzərə alınması şəxsiyyətin hərtərəfli inkişafında mühüm rol oynayır.

Gənc nəslin cəmiyyətimizdə milli dəyərlərimiz ruhunda tərbiyə edilməsi onlarda hər cür mənəvi keyfiyyətlərin formalaşmasında vacib amildir (8, s.75) Şəxsiyyətin mənəvi dünyasının zənginləşməsində dəyərlərin böyük rolu vardır. Bu baxımdan ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi gənclərdə milli ideologiyanın formalaşmasına təsir edir.

Professor İ.H.Cəbrayılov milli tərbiyə sistemi haqqında qeyd etmişdir ki, "müasir dövrdə azərbaycançılıq ideologiyasının formalaşdırılması tariximizə, dövlətçilik ənənələrimizə, mədəniyyətimizə, milli və bəşəri dəyərlərə, torpağa, vətənə, millətə hörmət və məhəbbətdən, milli düşüncəyə, hiss və duyğulara yiyələnməkdən başlayır" (9).

Milli ideologiyanın əsas komponentləri sırasında azərbaycançılıq, dövlətçilik, milli-mənəvi dəyərlər mühüm yer tutur.

Pedaqogika üzrə fəlsəfə doktoru S.S. Bəhrəmova "Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası" adlı dərs vəsaitində mənəvi dünyagörüşünün inkişaf pirinsiplərini aşağıdakı kimi müəyyənləşdirmişdir:

1. Sosial və hədəfyönlülük prinsipi;
2. Milli-mənəvi dünyagörüşünün inkişafı ilə həyat və əmək arasında əlaqə prinsipi;
3. Mənəvi dünyagörüşünün inkişafı prosesinin humanistləşdirilməsi prinsipi;
4. Mənəvi dünyagörüşünün inkişafı prosesinə vahid yanaşma prinsipi;
5. Əxlaqi-mənəvi dünyagörüşünün formalaşması prosesində milli və ümumbəşəri dəyərlərə söykənmək prinsipi;
6. Əxlaqi-mənəvi dünyagörüşünün inkişafında milli ideyaya, ideologiyaya və milli kimliyə söykənmək prinsipi (10, s. 42).

Tədqiqatçı pedaqoji prosesdə bu prinsiplərin təhsilalanların mənəvi-əxlaqi dünyagörüşünün inkişafında əsas olduğunu və təlimin səmərəli təşkilinə xidmət etdiyini göstərmişdir.

Ali məktəblərdə şəxsiyyətyönlü təhsil tələbələri cəmiyyətə layiqli vətəndaş kimi təqdim edir. Belə ki, vətən tarixinin tədrisində azərbaycançılıq ideologiyasının, milli ləyaqətin, milli şüurun formalaşması və inkişafı təlim və tərbiyəvi əhəmiyyət kəsb edir. Bu ideyaların gənclərdə formalaşması onların milli özünüdərkinə, öz xalqına, vətəninə bağlı insan kimi formalaşmasına kömək edir. Bu baxımdan azərbaycançılıq ideyalarının təbliği, vətənə bağlılıq hisslərinin inkişafı gənclərin şəxsiyyət kimi formalaşmasına təsir edir. İnsanın hərtərəfli inkişafı mənəvi tərbiyə ilə sıx bağlıdır.

Ali məktəblərdə təhsil alan gələcəyin gənc mütəxəssislərində milli özünüdərk və özünü dəyərləndirmək xüsusi əhəmiyyət kəsb edir. Bu da onların şəxsiyyət kimi inkişafında və ictimai həyata inteqrasiyasında vacib amillərdəndir. Azərbaycan tarixinin tədrisi həm də tələbə gənclərdə milli şüurun formalaşmasına xidmət edir. Milli şüurun formalaşmasında öz soykökünü tanımaq, milli adət-ənənələrinə hörmət, vətənə məhəbbət və qürur hissləri mühüm rol oynayır. Ali məktəblərdə Azərbaycan tarixi fənninin tədrisi gənclərin geniş dünyagörüşlü, milli-mənəvi dəyərlə-

rə bağlı, vətənpərvər şəxsiyyət kimi formalaşmasında rolu böyükdür.

Bildiyimiz kimi, milli və ümumbəşəri dəyərlərin formalaşmasında şəxsiyyətyönlü təhsilin rolu böyükdür. Ali məktəblərdə tədris olunan Azərbaycan tarixi fənni yetişməkdə olan gənc nəslin tarixi yaddaşının möhkəmləndirilməsində, onlarda vətənə, torpağa sevgi, vətənpərvərlik hisslərinin formalaşmasında, vətənini sevən, onu daim müdafiə etməyə hazır olan vətəndaş kimi formalaşmasında əvəzsiz rola malikdir.

Ali məktəblərdə Azərbaycan tarixi fənninin Türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ şəkildə tədrisi xalqımızın tarixi keçmişinin, soykökünün daha ətraflı və dərindən öyrənilməsində mühüm rol oynayır. Hər iki fənn üzrə tədris olunacaq mövzulara diqqət yetirsək geniş inteqrasiya imkanlarının olduğunu görə bilərik.

İnteqrativ öyrənmə, idrak təfəkkürünü təkmilləşdirmək üçün iki və ya daha çox fənnin bilik və düşüncə tərzlərini birləşdirən fənlərarası əlaqənin yaranmasıdır ki, bu da yalnız bir elm sahəsi ilə mümkün deyil (11, s.388). Tarixin tədrisində inteqrativ təlimdən istifadə tələbələrə tarixi hadisələri daha geniş şəkildə əlaqələndirməyə imkan verir ki, bu da onlarda araşdırma, tənqidi düşünmə, məlumat toplama və dərk etmə bacarıqlarının inkişafına kömək edir.

Türk dünyasını öyrənərkən biz türklərin ilkin yaşayış məskənləri, onların adət-ənənələri, etnoqrafik fəaliyyəti, onların yayılma arealı, bu xalqların köçü, mənşəyi, bir çox məkan adlarının, tarixdə iz qoyan şəxslərin türk mənşəli olmasını müəyyənləşdirsək görərik ki, Azərbaycan tarixinin türk xalqları və dövlətlərinin tarixi ilə geniş inteqrasiya imkanları vardır. Belə ki, ali məktəblərdə tədris olunan Azərbaycan tarixi fənninin geniş inteqrasiya imkanlarına malik olduğu fənlərdən biri Türk xalqları və dövlətlərinin tarixi fənnidir.

Belə ki, biz hər iki fənnin proqramına nəzər yetirsək şəxsiyyətin formalaşmasında mühüm rol oynayan bir çox mövzularda inteqrasiya imkanlarını görə bilərik. Buna nümunə olaraq göstərə bilərik ki, Azərbaycan tarixi fənnindən "IX-XII əsrlərdə Azərbaycanın sosial – iqtisadi və mədəni həyatı" mövzusunu tədris edərkən mədəniyyətlə bağlı "Kitabi-Dədə Qorqud" dastanı haqqında danışarkən Türk xalqları və dövlətlərinin tarixi fənnindən "Türk xalqlarının mədəniyyəti" mövzusu ilə inteqrasiya edə bilərik. Hər iki fəndə tədris olunan bu mövzu Azərbaycanın və bütün türk xalqlarının mənəvi sərvəti hesab edilir.

Dastanda xalqımızın mənəvi dəyərləri, tarixi keçmişi, qəhrəmanlığı təsvir edilmişdir. Dastan Azərbaycan xalqının tarixi köklərini, mədəniyyətini, kimliyini nümayiş etdirən mənbə hesab edilir.

Mövzunun inteqrativ şəkildə tədrisi tələbə-gənclərdə igidlik, vətənpərvərlik hisslərinin, o cümlədən xalqımızın mənəvi dəyərlərini milli kimlik şüurunun formalaşmasına təsir edir ki, bu da onların şəxsiyyət kimi formalaşmasına təsir edir. Ali məktəblərdə bu mövzunun tədrisi mədəni irsin qorunması və onun gənc nəsillərə çatdırılmasına xidmət edir.

Beləliklə, nəticə olaraq qeyd edə bilərik ki, ali məktəblərdə Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə inteqrativ tədrisi vətənimizin tarixi keçmişi haqqında tələbə-gənclərə ətraflı biliklər verməklə onlarda tarixi təfəkkür, yüksək intellektə, geniş dünyagörüşünə malik olan şəxsiyyət kimi formalaşmasında, tarixi köklərinə, adət-ənənələrinə, milli-mənəvi dəyərlərə sahib olan, vətənini, millətini sevən vətəndaş kimi tərbiyə edilməsində mühüm rol oynayır.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasının təhsil siyasətinin əsas məqsədlərindən biri təhsilin müasir keyfiyyətini təmin etmək, dəyişən informasiya dünyasında yaşamağa qadir olan şəxsiyyətin inkişafı və formalaşmasıdır. Bu baxımdan problemlə bağlı tədqiqatların aparılması zəruri hesab edilir.

**Problemin elmi yeniliyi.** Azərbaycan tarixinin digər türk xalqları və dövlətlərinin tarixi ilə qarşılıqlı əlaqədə tədrisinin didaktik əhəmiyyəti ondan ibarətdir ki, tələbələr türk xalqları və dövlətlərinin tarixi ilə dərindən tanış olmaqla bu xalqların bir-birini tanıması onların yaxınlaşmasına zəmin yaradır ki, bu da türk birliyinin möhkəmlənməsinə kömək edir. Türk xalqları və dövlətləri tarixinin inteqrativ tədrisi onlar arasında əlaqələrin, elmi-texniki tərəqqinin, milli-mənəvi dəyərlərin inkişafına da motiv yaradır.

**Problemin praktik əhəmiyyəti.** Problemlə bağlı aparılan araşdırmalardan ali məktəb müəllimləri, magistrantlar, tələbələr faydalana bilərlər.

**Ədəbiyyat**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu [Elektron resurs]
2. URL:https://edu.gov.az/az/esas-senedler/tehsil-haqqinda-azerbaycan-respublikasinin-qanunu
3. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" [Elektron resurs].
4. URL: https://edu.gov.az/az/dovlet-strategiyasi-ve-konsepsiyalar/12574
5. Cəbrayılov İ.H. Müasir təhsilin məzmununun formalaşdırılmasının aktual problemləri // –Bakı: Azərbaycan məktəbi, – 2018. №3, – s. 107-118.
6. Qəniyev, H.Q. Azərbaycan tarixi (ən qədim zamanlardan XXI əsrin ilk onilliklərinədək) Ali məktəblər üçün dərslik. / H.Q. Qəniyev. – Bakı: "Elm və Təhsil", –2019. –499 s.
7. Cəbrayılov, İ.H. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti. Monoqrafiya. / İ.H. Cəbrayılov. – Bakı: Mütərcim, –2011. –220 s.
8. Həsənova, X.S. Təhsilin humanistləşdirilməsi və tələbələrin mənəvi inkişafı məsələləri: mövcud ədəbiyyatın təhlili // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2018. №8, –s.70-76.
9. Əliyev, P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. / P.B. Əliyev, H.H. Əhmədov. – Bakı: Təhsil, – 2006. –264 s.
10. İsmayılxanova, Ə.İ. İnsan şəxsiyyətinin formalaşmasında təlim-tərbiyənin rolu// –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2025. №2, –s.72-76.
11. Cəbrayılov, İ.H. Milli tərbiyə sistemi azərbaycançılıq ideologiyasının əsas mənbələrindən biri kimi [Elektron resurs].
12. URL:https://tehsil.biz/news/az/16143/Milli-trbiy-sistemi-azrbaycanlq-ideologiyasnn-sas-mnblrindn-biri-kimi
13. Bəhrəmova, S.Ş. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası. (Ali məktəblərin Tarix və coğrafiya fakültəsi tələbələri üçün dərs vəsaiti). / S.Ş. Bəhrəmova. – Bakı: "OPTİMİST" MMC, – 2024. – 224 s.
14. Akmal, A. Integrative Learning in History Education: A Systematic Literature Review // Dinamika Ilmu, –2022, Volume 22(2), –p.375-392.


**Redaksiyaya daxil olub:** 29.04.2026